BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2014*

**UOT 340.1; 321.01**

# DİN-DÖVLƏT MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNİN DİNİ ETİQAD AZADLIĞININ MÜDAFİƏSİNƏ TƏSİRİNİN ƏSAS ASPEKTLƏRİ

**NİGAR ƏLƏKBƏROVA**
***AMEA Fəlsəfə və Hüquq İnstitutu***
***nigyar.m@mail.ru***

*Dini etiqad azadlığının qorunması və müdafiəsi, həmçinin din-dövlət münasibətlərinin tənzimlənməsindən asılıdır. Şübhəsiz ki, bu məsələdə hər bir dövlətin spesifik xüsusiyyətləri və dövlətdaxili qanunvericilik aktlarının müddəaları nəzərə alınmalıdır. Bununla əlaqədar, din-dövlət münasibətləri şəffaflıq, demokratik dəyərlər və qarşılıqlı əməkdaşlıq kontekstində tənzimlənməlidir. Eyni zamanda, ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin olunması, əhalinin əxlaq və sağlamlığının qorunması, habelə konstitusion quruluşa və dövlət mənafelərinə qarşı yönəlmiş qəsdlərin qarşısının alınması, terrorçuluq, separatçılıq, ekstremizm meylləri ilə mübarizə və onların ayrı-ayrı ünsürlərinin aradan qaldırılması kimi bəzi məsələlər mütləq şəkildə nəzərə alınmalıdır.*

**Açar sözlər:** din-dövlət münasibətləri, dinin dövlətdən ayrılması, dini etiqad azadlığı, dini ayin, dövlətdaxili qanunvericilik, dözümlülük, dövlət siyasəti, ictimai qayda.

Dini etiqad azadlığının qorunması, müdafiəsi və yerinə yetirilməsinin əsasında duran vacib elementlərdən biri də din-dövlət münasibətlərinin tənzimlənməsidir. Şübhəsiz ki, bu məsələ istər elmi-nəzəri ədəbiyyatlarda geniş fikir müxtəlifliyinə səbəb olması, istərsə də hər bir dövlətin qanunvericiliyində səciyyəvi xüsusiyyətləri baxımından təsbit olunması nöqteyi-nəzərindən müzakirə obyekti olaraq qalmaqdadır. Onu da qeyd etmək lazımdır ki, din-dövlət münasibətlərinin tənzimlənməsinin istənilən aspektində, hətta dinin dövlətdən ayrı olduğu halda belə bu sahədə düzgün dövlət siyasətinin həyata keçirilməsi ümdə vəzifələrdən və vacib şərtlərdən biridir.

Məhz bu baxımdan və qeyd olunanları nəzərə alaraq, qeyd etmək mümkündür ki, yalnız xalqların mövcudluğuna hörmət və müxtəlif dinlərin, mədəniyyətlərin, ənənələrin uyğunluğunun təmin olunmasına yönəlmiş dövlət siyasəti əsasında çoxmillətli və müxtəlif dinlərə etiqad edən insanların yaşadığı hər hansı ölkədə dinc yanaşı yaşama məsələsi həll oluna bilər. Bu isə, öz

növbəsində, aşağıdakı məsələlərin təhlilinin zəruriliyini ortaya qoyur:

1) Dini etiqad siyasətinin ideologiyaya çevrilməsinin qarşısının alınması və siyasi məqsədlərlə dinin istifadəsinin yol verilməzliyinin təmin olunması şərti ilə, bütün dinlərə ölkə ərazisində sərbəst etiqad olunmasına şərait yaradılmalıdır.

2) Dini etiqadlardan hər hansı birinə xüsusi önəm verilməsi və bununla bağlı prioritetliyin təmin olunması son nəticədə dövlət-din münasibətlərində, eləcə də müvafiq sahədə dövlət siyasətinin həyata keçirilməsində qeyri-uyğunluğun yaranmasına gətirib çıxarır.

3) Elmi-texniki tərəqqinin inkişaf etdiyi, habelə dövlətin və cəmiyyətin inteqrasiyasının gücləndiyi müasir dövrdə həyata keçirilən dini etiqad siyasətinin formalaşması dövlətin dini etiqadın qarşılıqlı əlaqəsinin tarixi təcrübəsi nəzərə alınmaqla həyata keçirilməlidir. Tarixi təcrübənin bütövlükdə nəzərdən keçirilməsi və obyektiv baxımdan qiymətləndirilməsi öz-özlüyündə dövlət-din münasibətlərinin müasir modelinin yaradılması prosesinə, eləcə də cəmiyyətin dini həyatında meydana çıxan problemlərin gündəlik həlli mexanizmlərinin formalaşmasına müsbət təsir göstərəcəkdir.

4) Müasir dövrdə demokratik proseslərin güclənməsi və hüquqi dövlət ideyasının təşviqi, xüsusilə beynəlxalq birliyin və dünya dövlətlərinin qarşısında duran ümdə vəzifə kimi insan hüquq və azadlıqlarının müdafiəsinin vacibliyi dini etiqadla bağlı münasibətlərin formalaşdırılması və inkişafının qanunvericilik əsasında həyata keçirilməsinin zəruriliyini önə çəkir. Yəni bu sahədə meydana çıxan bütün problemlər hüquqi yolla öz həllini tapmalı, pozulmuş hüquqların bərpası məhkəmə vasitəsilə təmin olunmalıdır [3, 39].

Şübhəsiz ki, vicdan və dini etiqad azadlığının təmin edilməsini nəzərdə tutan beynəlxalq hüquq normalarına əməl olunması ilə bağlı aidiyyəti dövlət orqanlarının fəaliyyəti və bu istiqamətdə səylərin gücləndirilməsinin vacibliyi də nəzərdən qaçırılmamalıdır [9, 23-46]. Bundan əlavə, din-dövlət münasibətlərinin tənzimlənməsinin təhlili zamanı, bu münasibətlərin növ müxtəlifliyi də elmi-nəzəri ədəbiyyatlarda müzakirə obyekti kimi hərtərəfli fikir müxtəlifliyinə gətirib çıxarır. Belə ki, bəzi müəlliflər (məsələn, V.V.Starostenko və s.) din-dövlət münasibətlərinin üç əsas modelini fərqləndirmişdir: inteqrasiya, yəni dövlətin dini birliklərinin mövcudluğu; ayrılma, yəni dinin dövlətdən ayrılması; əməkdaşlıq, yəni dövlətlə dini birliklərin qarşılıqlı əməkdaşlığı [8, 78].

Digər qrup tədqiqatçı-alimlər (məsələn, V.V.Starostenko və s.) isə qeyd olunan kontekstdə dövlətin iki əsas formasını – dini dövlət və dünyəvi dövlət formalarını fərqləndirirlər. Belə ki, həmin müəlliflərin fikrincə, dini dövlət konkret dindən kəskin asılılığı öz üzərinə götürməklə, “xristian”, “islam” və ya “buddist” dövləti adlanmağa başlayır. Bu cür dövlətlərdə dini azadlığın bu və ya digər forması mövcud ola bilər ki, bu da ayrı-ayrı vətəndaşlarının dövlət dininə mənsubiyyətinin onların mülki hüquqlarının bütövlüyü ilə bağlı olması, habelə dini hüquq normalarının qüvvəsinin dövlət tərəfindən təmin edilməsi ilə bağlıdır. Dünyəvi dövlət üçün səciyyəvi olan əsas xüsusiyyət normativ-hüquqi

aktlarda öz əksini taparaq rəsmiləşdirilən və dövlətin praktiki fəaliyyətində həyata keçirilən dinin dövlətdən ayrı olması prinsipinin hüquqi qüvvəyə malik olmasıdır. Bu müddəa, eyni zamanda, həmin prinsipin de-yure və de-fakto mövcudluğu kimi xarakterizə oluna bilər. Sözügedən dövlət tipinin özünəməxsus tərkib elementlərinə gəldikdə isə burada üç əsas formanın özünü büruzə verməsi qənaətinə gəlmək olar: "qeyri-dini" dövlət, "ateist" dövlət və "mədəni əməkdaşlıq".

Onu da qeyd etmək lazımdır ki, dini birliklərin hüquqi bərabərliyi nəzərə alınmaqla, dövlət-din münasibətlərinin inkişafının daha qənaətbəxş nəticəsidir. Müvafiq dövlət formasında vətəndaşların vicdan azadlığına şamil olunan, dinə münasibətindən asılı olmayaraq, vətəndaşların dini etiqad azadlığı və bərabərliyini təmin edən vicdan azadlığı prinsipi konkret sosial-tarixi şəraitdə müxtəlif səviyyələrdə təmin olunur [7, 14-15]. Din-dövlət münasibətlərinin müəyyənləşdirilməsi kontekstində dünyəvilik məsələsinə toxunmaq da yerinə düşərdi. Ümumiyyətlə, din-dövlət münasibətləri təkcə hüquqi baxımdan deyil, fəlsəfi, sosioloji, tarixi, politoloji aspektlərdən təhlil olunur. İstənilən halda din-dövlət münasibətləri, xüsusilə dünyəviliyin formalaşması və dünyəvi dövlət ideyasının inkişafı, habelə dinin dövlətdən ayrı olması dini etiqad azadlığının heç bir fərq qoyulmadan bərabər və hüquqauyğun şəkildə təmin edilməsinin əsas baza hissəsini təşkil edir. Hətta A.S.Vatoropin və digər müəlliflər də hesab edirlər ki, insanın metafizik tələbatlarının aşkara çıxarılması baxımından müasir dövrdə dünyəvilik və din qarşılıqlı əlaqəyə və asılılığa malikdir [2, 145]. Bununla belə, iri dini qurumları ilə dövlətin əməkdaşlığı kontekstində din-dövlət münasibətlərini geniş aspektdən təhlil edən bəzi müəlliflər (məsələn, D.V.Bellinq və s.) bu sahədə alman modelinin tətbiqini məqsədəuyğun hesab edirlər ki, bununla da dövlətin bütün sosial problemləri öz üzərinə götürməməsi əsas şərtdir [1, 113-114]. Lakin sonuncu fikirlə razılaşmaq qeyri-mümkündür. Çünki hər bir subyektiv imkan kimi dini etiqad azadlığının da təminatı, müdafiəsi və qorunması vəzifəsi dövlətin üzərinə düşür. Digər tərəfdən, yalnız dünyəvi dövlətin mövcudluğu şəraitində, eləcə də din-dövlət münasibətlərinin paritet və neytral münasibətlər əsasında inkişaf etdiyi çərçivədə dini etiqad azadlığının təminatı və müdafiəsi mümkündür.

Təhlil olunan məsələ ilə bağlı ayrı-ayrı dövlətlərin qanunvericilik təcrübəsinə gəldikdə isə bu, özünün spesifikliyi, dövlətçilik əsasları, hüquq mədəniyyəti, hüquq psixologiyası və konkret olaraq qanunvericiliyin mənsub olduğu hüquq ailəsinin özünəməxsusluğundan daha çox asılıdır. Bu isə dövlətlərin dinə münasibətini fərqləndirən əsas amillərdən sayılmalıdır. Sözügedən halı ayrı-ayrı dövlətlərin konkret təcrübəsində görmək mümkündür. Belə ki, müstəqillik qazanaraq beynəlxalq hüququn tamhüquqlu və suveren subyektinə çevrilən Azərbaycan Respublikası da dünyəvi dövlət olmaqla, dini etiqad azadlığının təmin olunmasına yönəlmiş müxtəlif tədbirləri həyata keçirir. Ölkəmizin dünyəviliyini hüquqi baxımdan təsdiq edən Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində öz əksini tapan *"Azərbaycan dövləti demok-*

*ratik, hüquqi, dünyəvi, unitar respublikadır"* müddəası öz-özlüyündə din-dövlət münasibətlərinə aydınlıq gətirsə də, bununla bağlı xüsusi konstitusion normanın mövcudluğu demokratik dəyərlərin və insan hüquqlarının beynəlxalq standartlara uyğun şəkildə qorunması və müdafiəsinin bariz nümunəsi sayılmalıdır. Belə ki, Konstitusiyanın 18-ci maddəsinin I hissəsinə əsasən, bütün dini etiqadların qanun qarşısında bərabərliyi təmin edilməklə, Azərbaycan Respublikasında dinin dövlətdən ayrı olması hüquqi baxımdan xüsusilə vurğulanmışdır. Sözügedən müddəaya uyğun olaraq, dinin dövlətdən ayrı olması kontekstində dövlət təhsil sisteminin dünyəvi xarakter daşıması, eləcə də insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliğinin qadağan edilməsinə dair müddəanın ehtiva olunması dini etiqad azadlığının qorunması, bununla belə dini etiqad adı altında hər hansı separatizm, ekstremizm, terrorçuluq, ksenofobiya və digər insanlığa zidd olan əməllərin təbliğinin və onların praktiki olaraq həyata keçirilməsinin yolverilməzliyinə yönəlmiş əsas konstitusion hüquqi bazadır.

Bundan əlavə, Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" 20 avqust 1992-ci il tarixli Qanununun 5-ci maddəsinə əsasən, ölkə ərazisində dinin və dini qurumların dövlətdən ayrı olmasına dair müddəa öz əksini tapmışdır. Eyni zamanda, müvafiq qanunvericilik müddəasına əsasən, sözügedən dünyəvilik özündə bir sıra elementləri birləşdirir:

1) dövlət tərəfindən ona aid olan hər hansı işin yerinə yetirilməsinin dini qurumlara tapşırılmaması və onların fəaliyyətinə müdaxilə olunmaması;

2) bütün dinlər və dini qurumların qanun qarşısında bərabərliyinin təmin olunması;

3) bir din və dini qurum üçün digərinə nisbətən hər hansı üstünlük və ya məhdudlaşdırmaların müəyyən edilməsinə yol verilməməsi;

4) dini qurumların ictimai həyatda iştirak etmək, habelə ictimai birliklərlə yanaşı kütləvi məlumat vasitələrindən istifadə etmək hüququna malik olmaları;

5) dini qurumların siyasi partiyaların fəaliyyətində iştirak etməməsi və onlara maliyyə yardımı göstərməməsi;

6) dövlət orqanlarının tərkibinə seçildikdə və ya vəzifəyə keçdikdə din xadimlərinin din xadimi kimi fəaliyyəti həmin müddətdə dayandırılması;

7) dini qurumların Azərbaycan Respublikasının mövcud qanunlarına əməl etməsi və buna uyğun olaraq məsuliyyət daşıması.

Azərbaycan Respublikasının dünyəvi dövlət olması məsələsi, eyni zamanda, dövlət təhsil sisteminin dindən ayrı şəkildə inkişaf etdirilməsini də özündə şərtləndirir. Belə ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə uyğun olaraq, dövlət təhsil sistemi dindən ayrıdır. Bununla belə, qanunvericiliyin tələblərinə uyğun olaraq, dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilməsinin, habelə vətəndaşların istədikləri dildə fərdi qaydada və ya başqaları ilə birlikdə ilahiyyəti

öyrənə və dini təhsil ala bilməsinin mümkünlüyü öz əksini tapmışdır.

Bununla bağlı xarici dövlətlərin təcrübəsini də nəzərdən keçirmək maraqlı olardı. Məsələn, Ukrayna Konstitusiyasının 35-ci maddəsinə əsasən, istənilən vətəndaş dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, habelə təkbaşına və ya kollektiv şəkildə maneəsiz olaraq dini ayinləri icra etmək və dini təbliğat aparmaq hüququna malikdir. Bununla belə, ictimai qaydanın, əhalinin sağlamlığı və əxlaqının qorunması, eləcə də digər insanların hüquq və azadlıqlarının qorunması naminə bu subyektiv imkanın məhdudlaşdırılması mümkündür. Eyni zamanda, sözügedən dövlətin konstitusiyasına əsasən, dünyəvi təhsilin ayrıca olaraq inkişafı, hər hansı dinin dövlət tərəfindən məcburi şəkildə tanınmaması, eləcə də istənilən dini motivlərə görə kimsənin dövlət qarşısında öhdəliklərindən və ya qanunun yerinə yetirilməsindən azad olmasının yol verilməzliyinə dair müddəa öz əksini tapmışdır. Qeyd olunanları nəzərə alaraq, Ukrayna Konstitusiyasının tələblərini nəzərə alaraq, din-dövlət münasibətləri ilə bağlı aşağıdakı prinsiplərin mövcudluğu qənaətinə gəlmək olar: etiqad etmək və ya etiqad etməmək hüququ; dinin dövlətdən ayrılması; təhsilin kilsədən ayrı olması.

Yəni Ukrayna Konstitusiyasının 35-ci maddəsinin təhlili onu göstərir ki, kilsə və dövlət səciyyəvi funksiyalarını yerinə yetirməklə, bir-birlərinin işinə müdaxilə etmir, eləcə də dini təhsil dünyəvi təhsil sistemindən ayrıca olaraq inkişaf etdirilir. Daha dəqiq ifadə etsək, burada söhbət qarşılıqlı müdaxilədən deyil, qarşılıqlı əməkdaşlıqdan gedir [5, 203].

Özbəkistan isə dini təşkilatlarla münasibətlərini müəyyən rəhbər başlanğıclar əsasında formalaşdırır: etiqad şəxsin dini hisslərinə hörmət olunması; vətəndaşların və ya onların birliklərinin dini etiqadlarının tanınması; vətəndaşların bərabər hüquqlarının təmin olunması, habelə onların etiqad etdikləri və ya etmədikləri dini baxışlarının təqibinin yolverilməzliyi; ümumbəşəri əxlaqi dəyərlərin bərqərar olunması və onların təsdiqi işində müxtəlif dini birliklərin imkanlarından istifadə olunması üçün həmin qurumlarla dialoq axtarışının zəruriliyi; dinlərdən pozucu və dağıdıcı məqsədlərlə istifadə edilməsinin yolverilməzliyinin tanınması [4, 42-43].

Dünyanın bəzi dövlətlərinin konstitusiyalarında isə din-dövlət münasibətləri birbaşa şəkildə ölkə konstitusiyasında öz əksini tapmışdır. Belə ki, Danimarka Konstitusiyasının 4-cü, Norveç Konstitusiyasının 2-ci, İslandiya Konstitusiyasının 62-ci maddələrində protestant-lüteran kilsəsinin dövlətin rəsmi kilsəsi olması və bununla əlaqədar dövlət dəstəyindən istifadə etməsi, Yunanıstan Konstitusiyasının 3-cü maddəsində şərqi-pravoslav xristian kilsəsinin ölkədə hakim din qismində çıxış etməsinə dair müddəalar öz əksini tapmışdır [6, 25, 646, 658, 761]. Bolqarıstan Konstitusiyasının 13-cü maddəsinə əsasən, dini birliklərin dövlətdən ayrılması, bununla belə şərqi-pravoslav etiqadın ölkədə ənənəvi din sayılması ilə bağlı norma ehtiva edilmişdir. İspaniya Konstitusiyasının 16-cı maddəsində qeyd olunmuşdur ki, dövlət hakimiyyəti orqanları ispan cəmiyyətinin dini etiqadına diqqət yetirməli, habelə katolik kilsəsi və

digər dinlərlə qarşılıqlı əməkdaşlıq şəraitində meydana çıxan münasibətləri dəstəkləməlidirlər [6, 53, 396].

Beləliklə, qeyd olunanları nəzərə alaraq, aşağıdakı nəticələrə gəlmək olar:

1) Din-dövlət münasibətlərinin şəffaf, demokratik dəyərlər və qarşılıqlı əməkdaşlıq şəraitində qurulduğu cəmiyyət və dövlətlərdə dini etiqad azadlığının qorunması və müdafiəsi çox mühüm əhəmiyyət kəsb edir. Bu halda, müəyyən istisnalar (ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması; əhalinin əxlaqı və sağlamlığının qorunması; konstitusion quruluşa və dövlət mənafelərinə qarşı yönəlmiş qəsdlərin qarşısının alınması; terrorçuluq, separatçılıq, ekstremizm meylləri ilə mübarizə və onların ayrı-ayrı ünsürlərinin aradan qaldırılması və s.) nəzərə alınmaq şərtilə, dini etiqad azadlığı istənilən dinə etiqad etməyi və ya heç bir dinə etiqad etməməyi nəzərdə tutur. Bu isə yalnız dünyəvi dövlətin bərqərar olduğu cəmiyyətlərdə tam və azad şəkildə təmin edilə bilər. Çünki dini dövlətdən fərqli olaraq, dünyəvi dövlətdə dinin dövlətdən və təhsildən ayrılması tendensiyası mövcuddur. Bu da, öz növbəsində, dövlət hakimiyyəti orqanlarının dini təsirdən azad olmaqla, dini etiqad azadlığı ilə bağlı məsələlərə neytral mövqedən yanaşmasını şərtləndirir.

2) Din-dövlət münasibətlərinin düzgün tənzimlənməsi dini və siyasi qanunauyğunluğun qənaətbəxş şəkildə formalaşmasına, habelə liberal cəmiyyət və demokratik proseslərin həyata keçirilməsi kontekstində dini etiqad azadlığının qorunması və müdafiəsinə gətirib çıxara bilər.

**ƏDƏBİYYAT**


1. Беллинг Д.В., Бойко А.В., Серова Н.Б. Актуальные проблемы государственно-конфессиональных отношений в Российской Федерации (сравнительно-правовой анализ с государственно-церковными отношениями в ФРГ) // Религиоведение, 2007, № 4, с. 111-119
2. Ваторопин А.С., Ольховиков К.М. Перспективы секуляризма и религии в эпоху постмодерна // Журнал «Общественные науки и современность», 2002, № 2, с. 136-145
3. Гавриленков А.Ф. Политика государственной власти Российской империи в отношении Православной церкви, инославных конфессий и авраамических (нехристианских) вероисповеданий в 1721-1917 гг.: сущность, принципы, эволюция. Автореф. дисс. на соиск. учен. степ. докт. истор. наук. М., 2010, 44 с.
4. Каримов И.А. Узбекистан на пороге XXI века: угрозы безопасности, условия и гарантии прогресса. М.: Дрофа, 1997, 315 с.
5. Катунин Ю.А. Религия и церковь в условиях Украинской «демократии» // Журнал «Культура народов Причерноморья», 2011, № 217, с. 202-205
6. Конституции государств Европы. В 3 т. Т.2. Под общ. ред. Л.А.Окуньков. М.: НОРМА, 2001, 840 с.
7. Себенцов А.Е. Принцип свободы совести и его реализация в Российской Федерации: состояние, тенденции и перспективы. Автореф. дисс. на соиск. учен. степ. канд. философ. наук. Санкт-Петербург, 2009, 22 с.
8. Старостенко В.В. Религия и свобода совести в Беларуси: очерки истории: Монография. Могилев: УО «МГУ им. А.А.Кулешова», 2011, 272 с.
9. Шахов М.О. Конституционно-правовые основы государственно-конфессиональных отношений в Российской Федерации. Учебное пособие. 2-е изд., исправл. М.: РАГС, 2008, 108 с.

## ОСНОВНЫЕ АСПЕКТЫ ВЛИЯНИЯ РЕГУЛИРОВАНИЯ ОТНОШЕНИЙ РЕЛИГИЯ - ГОСУДАРСТВО НА ЗАЩИТУ СВОБОДЫ ВЕРОИСПОВЕДАНИЯ

**НИГЯР АЛЕКПЕРОВА**

### РЕЗЮМЕ

Защита и поощрение религиозной свободы также зависит от регулирования отношений религия-государство. Несомненно, при этом необходимо учитывать специфические особенности каждого государства и положения его внутригосударственных законодательных актов. В этой связи, отношения религия–государство должны регулироваться на основе прозрачности, демократических ценностей и в контексте взаимного сотрудничества. В то же время, необходимо обязательно учитывать такие вопросы, как защита общественного порядка и обеспечение общественной безопасности, защита общественной морали и здоровья, а также профилактика попыток против конституционных порядок и государственных интересов, борьба против связанных с терроризмом, сепаратизмом, экстремизмом тенденций и ликвидации их отдельных элементов.

**Ключевые слова**: отношения религия-государство, отделение религии от государства, свобода вероисповедания, религиозная церемония, внутригосударственное законодательство, толерантность, государственная политика, общественный порядок.

## MAIN ASPECTS OF INFLUENCE OF RELIGION-STATE RELATIONS REGULATION`S TO THE PROTECTION OF RELIGIOUS FREEDOM

**NIGAR ALAKBAROVA**

### SUMMARY

The protection and promotion of religious freedom also depends from regulation of religion-state relations. Surely, the specific peculiarities of per state and its legislative acts` norms are considered in this matter. In this regard, religion-state relations should be regulated on the grounds of transparency, democratic values and on the context of mutual cooperation. At the same time, some issues as protection of public order and ensuring of public security, protection of public moral and health as well as prevention of attempts against constitutional order and state interests, struggle against trends related to terrorism, separatism, extremism and abolishment of their separate elements must be taken into consideration absolutely.

**Key words**: religion-state relations, separation of state and religion, freedom of religion, religious rite, domestic legislation, tolerance, state policy, protection of public order.